


# 2024-cü ilin tarixə yazılan səhifələri

## Ümumxalq etimadı, iqtisadi uğurlar, sosial rifah, Suverenlik Günü və COP29

**2024-cü ilin son günlərini yaşayırıq, bir neçə gün sonra ona "əlvida" deyəcəyik. Paralel olaraq qazandığımızı və itirdiyimizi götür-qoy edəcəyik. Qazandıqlarımız uğurumuz sayılacaq, itirdiklərimizinsə səbəblərini araşdıracağıq ki, yeni ildə onları aradan qaldıraq.**

Əslində, məqsədimiz bundan yazmaq deyil, bütövlükdə Azərbaycanda bu il baş verən olaylar fonunda daha yaddaqalan məqamlardan söz açmaqdır. Onların bəzisi Azərbaycan xalqının taleyinə qızıl xətlə yazılan qlobal hadisə, bəzisi insanı ruhlandıran, onu yaşamağa həvəsləndirən xoş günlər, bəzisi isə üzərinə kədər çökmüş, qəm ələnmiş məqamlardır.

### İlin ən yaddaqalan siyasi hadisəsi

İlin ən yaddaqalan siyasi hadisəsi fevralın 7-də keçirilən prezident seçkiləri oldu. İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq yenidən 7 il müddətinə Azərbaycanın Prezidenti seçildi.

Bu seçkini digər seçkilərdən fərqləndirən əsas amil bu idi ki, o, son 30 ildə ilk dəfə bütün ölkə ərazisində keçirilirdi. Bu seçki həm də xalqın qəlbindəki yaranın sağaldığı bir vaxta təsadüf edirdi. Xalq öz Prezidentinə sevə-sevə səs verdi, dəstəklədi, onu yenidən dövlət başçısı statusunda görmək arzusunu reallaşdırdı.

Bu seçkinin nəticələri təkcə xalqımızın deyil, beynəlxalq ictimaiyyətin də dövlətimizin başçısına inam və etimadını, onun qlobal miqyasda nüfuzunu, sülhə və təhlükəsizliyə töhfə verən lider olduğunu bir daha təsdiqlədi. Bunu seçkidən sonra dünyanın aparıcı ölkələrinin liderləri tərəfindən dövlətimizin başçısına ünvanlanan təbrik məktublarındakı fikirlər də sübut etdi.

### İqtisadi uğurlar, sosial rifah

2024-cü il də Azərbaycanın iqtisadi həyatına və siyasi arenasına öz "damğa"sını vurdu. Davam edən iqtisadi siyasət nəticəsində 11 ay ərzində iqtisadi artım 4,1 faiz qeydə alındı, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM artımı 6,4 faizə çatdı. Ölkənin strateji valyuta ehtiyatları 72 milyard dolları ötdü. Son məlumata görə, Azərbaycanın birbaşa xarici dövlət borcu ümumi daxili məhsulun cəmi 7,3 faizini təşkil edir. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar nəticəsiz qalmır.

Ölkə iqtisadiyyatına investisiyanın cəlb olunması istiqamətində kompleks tədbirlərin görülməsi 2024-cü ildə də davam etdi. Bunun sayəsində Azərbaycanın da iştirakçısı olduğu bəzi qlobal layihələr həyata vəsiqə aldı. Dünyada iqtisadi gərginlik davam etdiyi halda ölkəmiz bu il də özünün sabit inkişafını qoruyub saxlaya bildi. Həyata keçirilən sosial siyasət əhalinin rifahının yüksədilməsinə, sosial infrastrukturun tamamilə müasirləşdirilməsinə imkan verdi.

### Davam edən köç karvanları

"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deyən dövlət başçısı işğaldan azad olunmuş ərazilərə köç karvanlarının davam edəcəyi müjdəsini hələ 2023-cü ildə vermişdi: "2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar".

Elə də oldu. Bu il 32 ildən sonra Xocalıya 24 ailədən ibarət ilk köç karvanı yola salındı. Dekabrın 13-də Xocalının Ballıca kəndinə istiqamət götürən köç karvanı təkcə 27 ailənin sevinci deyildi. Xocalının 152 sakini dədə-baba ocağına yenidən qayıtmaq üçün doğma yurduna yol almışdı. Qeyd edək ki, ilk köç karvanı 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə olmuşdu. 2024-cü ilin köç karvanları isə ilin sonunacan davam edəcək.

### Daha bir qürur günümüz

Hər bir xalqın arzusu öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirməkdir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir.

Azərbaycan 2023-cü ilin sentyabrında 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı ilə dövlət suverenliyini bərpa etdi. Suverenlik hakimiyyətin ali xüsusiyyətini ifadə edir, dövlətin mövcudluğunun hüquqi əsası və onun beynəlxalq hüququn subyektinə çevrilməsinin başlıca şərti kimi qəbul olunur. O, həm də dövlətin mövcudluğunun və institusional davamlılığının əsas şərtidir. Bu baxımdan Prezidentin 20 sentyabrın Dövlət Suverenlik Gününün təsis edilməsi haqqında sərəncamı 2024-cü ilin səhifələrinə yazılan qürur günüdür. Həmin gün bizə müqəddəs bayramlar sırasına daha birinin də əlavə olunduğu sevincini bəxş etdi.

### Qarabağ Universiteti - Zəfərin daha bir ünvanı

Sentyabr ayı 2024-cü ilin yaddaşına heç bir zaman unudulmayacaq hadisələrlə yazıldı. Dövlət Suverenliyi Günündə Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin və bu ali məktəbin tələbə yataqxanasının təmirdən sonra açılış mərasimində iştirak edərək müəllim və tələbə heyəti ilə görüşdü.

Qarabağ Universiteti sıradan bir təhsil ocağı deyil, o, Azərbaycan xalqının daha bir qürur ünvanıdır. Xankəndidə qısa müddətdə belə bir elm məbədinin yaradılması Azərbaycanın təhsil sahəsində də nəyə qadir olduğunu göstərdi.

Universitetin açılışının məhz 20 sentyabrda gerçəkləşməsi isə təsadüfi deyildi. Çünki tarixin bu günündə Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz birgünlük lokal xarakterli antiterror tədbiri ilə ölkəmizin suverenliyini tam bərpa etmişdir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bu, artıq şanlı tariximizdir və Qarabağ Universitetinin yaradılması tarixi hadisədir.

### "Yaşıl dünya naminə həmrəylik ili"nin COP29 zirvəsi

"Yaşıl dünya naminə həmrəylik ili" elan olunan 2024-cü il həm də ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində atılan addımlar, "yaşıl enerji" sahəsində həyata keçirilən layihələr, işğaldan azad edilmiş ərazilərin, həmçinin Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan olunması ilə tarixə düşdü.

2024-cü ili tarixin səhifələrinə uğurlu il kimi yazdıran hadisələrdən biri də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) oldu. COP29 nəinki ölkəmizdə, ümumiyyətlə, dünyada ötən il baş tutan ən mötəbər tədbirlərdən biri idi. 2023-cü ilin dekabrında təxminən 200 dövlətin yekdil qərarı ilə bu tədbirə evsahibliyinin Azərbaycana həvalə olunması Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin və ölkəmizə çox böyük etimadın, yüksək inamın göstəricisi idi. COP29 Azərbaycanın indiyədək evsahibliyi etdiyi ən irimiqyaslı tədbir idi. Onun təşkili və keçirilməsi üçün cəmi 10 ay vaxt sərf edildi ki, bu müddət qısa zaman kimi rekord göstərici sayıla bilər.

### İndi bizim də Zəfər tağımız var

2024-cü ilin ən yaddaqalan hadisələrindən biri də 8 noyabr günü Zəfər parkının açılışı oldu. Məlumat üçün bildirək ki, dünyanın hər yerində Zəfər tağı şəhərin girişində, küçənin sonunda, körpü başlanğıcında, böyük küçələrdə qaliblər şərəfinə və ya hansısa bir vacib hadisəyə görə ucaldılır. Zəfər tağları qədim Roma memarlığının ən təsirli və fərqləndirici növlərindən biridir. Bəzi ölkələrdə kral xatirəsi üçün də Zəfər tağı tikilir. Dünya antik mədəniyyətinin təcəssümü olan ilk Zəfər tağı eramızdan əvvəl 24-cü ildə Sezar Avqustun şərəfinə tikilib. Bu günə qədər dünyada 66 Zəfər tağı inşa edilib. Onlardan 9-u təbii fəlakətlərdən, söküntülərdən və müxtəlif səbəblərdən dağılıb. Bu gün dünyada öz mövcudluğunu qoruyub saxlayan 57 Zəfər tağı var ki, onlardan biri də paytaxtımızdadır.

Bu möhtəşəm kompleks xalqımızın həmrəylik, bütövlük, güc və qələbə ideallarını təcəssüm etdirir. Bu cür yüksək ideallara, dəyərlərə söykənən xalqın və onun Liderinin yolu bir gün məhz Zəfər tağından keçməliydi. Ucalığı, əzəməti, məzmunu ilə seçilən bu abidə həqiqətən əsl Zəfər simvoludur. Prezident İlham Əliyevin möhtəşəm abidənin açılışında dediyi sözlər Zəfər tağının əbədi rəmz olacağına işarədir: "Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb. Şəhərə gedən iki yolun kəsişməsində Zəfər tağı yerləşir. Həm müasir üslubda inşa edilib, həm çox əzəmətlidir. Hündürlüyü də 44 metrdir, sütunlarının da sayı 44-dür. Bu parkda və indi tərtib olunan muzeydə bir çox önəmli rəmzlər var. Bu qələbə bizimlə əbədi olacaq. Azərbaycan xalqı bundan sonra qalib xalq, Azərbaycan dövləti müzəffər dövlət kimi yaşayacaqdır".

### İlin sınağı

Təəssüf ki, ötən ilin uğurları ilə yanaşı, həyatın bizi ağır faciə ilə sınağa çəkdiyi məqamı da oldu. Bu, dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin qəzaya uğraması idi. Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəza enişi edən avialaynerin göyərtəsində olan 5 ekipaj üzvü ilə birlikdə 62 sərnişindən 32-nin həlak olması, 29-nun yaralanması bütün ölkəni sarsıtdı.

Həmin gün Sankt-Peterburq şəhərində keçirilən MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına yola düşən Prezident İlham Əliyev səfərini yarımçıq qoyaraq vətənə dönüb Heydər Əliyev Beynəlxalq Hava Limanında müşavirə keçirdi, əlaqədar qurumlara lazımi tapşırıq və göstərişlər verdi, dekabrın 26-nı ölkədə matəm elan etdi.

Bu hadisə zamanı nümayiş etdirdiyimiz həmrəylik bir daha xalqımızın birliyini, sarsılmazlığını, gücünü, qürurunu göstərdi. Göstərdi ki, 8 Noyabr Zəfər və 20 Sentyabr Suverenlik günlərini qazanan xalqımız 25 dekabr faciəsi kimi hadisələri də dəf etməyə qadirdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*